# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 74 (962) 18 aprel - 20 aprel 2015-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

*(Əvvəli ötən saylarımızda)*

Çünki həmin o layihənin bir bəndində də istehsal olunan məhsulun Rusiya, Belarusiya, Qazaxıstan və digər ölkələrdə satışa çıxarılması xüsusi qeyd edilibdi. Əgər söhbət sənayenin inkişafından gedirsə, onda İmişlidə alternativ enerji mənbələrinin, yəni "Günəş", "Bioenerji" və "Şüşə" zavodlarının da tikintisi üzrə imişlilər belçikalılarla artıq dövlət səviyyəsində danışıqlar aparırlar.

Bütün bu söylədikləriimz bir daha göstərir ki, İmişli rayon icra hakimiyyəti başçısı və onun komandası İmişlinin cari sərhədlərinə daxil olan elə yaşayış məskənləri var ki, onların hər biri özü-özlüyündə Azərbaycan tarixinin səhifələrini yaddaşında yaşadır. Həmin səhifələri çevirəndə Muğan düzünün sinəsində illərlə gizlənən və hələ də bir çoxu bizlərə məlum olmayan bir-birindən maraqlı hadisələr. Sirlər, tarixi faktlar üzə çıxır, onlarla qarşılaşırıq. Deməli, İmişlinin bir rayon kimi formalaşmasında əsas bazalardan sayılan kəndlər, o cümlədən də Qaradonlu kəndi, həmçinin Əliqulular, Sərxanlı, Əlipənahlı və digər kəndlər (mən bu kəndlərdə olduğum üçün onların adını qabardıram. Təbii ki, Azərbaycanın bütün ərazilərində olduğu kimi, İmişlidə də həmin ad məsələləri gündəmə gəlmiş və tarixi həqiqətlər öz təsdiqini taparaq ədalətsizlik ortadan qaldırılmışdı. Ona görə də bu gün təkcə İmişli şəhərinin mərkəzində deyil, həm də kənd və qəsəbələrində aparılan abadlıq işləri insanları sevindirir. Açıq şəkildə görünür ki, küçə və yolların abadlaşması, yeni inzibati binaların, sosial obyektlərin tikintisi, iş yerlərinin açılması, həmçinin rabitə, qaz, su problemlərinin ortadan qaldırılması rayon sakinlərininhər birinin ürəyindən xəbər verir.

Hal hazırda İmişlinin elə bir



# TƏSƏRRÜFAT SAHƏLƏRİNİN ÇİÇƏKLƏNDİYİ İMİŞLİ

## Burada böyük layihələrə uğurla start verilir



və prespektiv inkişaf planlarını hazırlayarkən təkcə yerli imkanlara deyil, həm də bu imkanları özünə cəlb etdiyi xarici şirkətlərin də köməyi ilə Mil və Muğan düzlərinin kəsişməsində qərar tutmuş İmişlinin yaxın onilliklər üçün möhtəşəm bir şəhərə çevrilməsini xüsusi qeyd ediblər. Yəni tikiləcək zavodlar, açılacaq emal müəssisələri bu gün layihə olsa da, artıq bu layihələr ölkə hüdudlarından kənarda fəaliyyət göstərən müxtəlif şirkətlərin diqqətini özünə çəkibdi. Ona görə də İmişlidə hər kə sabaha daha ümidlidi və bugünün işini sabaha saxlamadan problemlərin ortadan qaldırılmasını sürətləndirirlər.

Adətən istənilən bölgənyə səfər edəndə onun tarixi, dünəni, bugünü istər-istəməz diqqəti çəkir. Çünki həmin bölgənin əraziləri, xüsusilə yol kənarlarında qoyulmuş ünvan bildirən lövhələr və burada yazılmış adlar bir anlıq da olsa diqqəti çəkir. Düşünürsən ki, hansı kənddəsən, hansı yerdən keçirsən. Bu adın mənası nədir və ümumiyyətlə həmin söz hansı qaynaqlardan xəbər verir? Bütün bunlar İmişliyə yolu düşən hər bir kəs üçün də maraqlıdır. Şəxsən mən bir rayon kimi, bir inzibati ərazi vahidi kimi İmişli rayonunun artıq 86-cı ilini yaşadığını bilirəm. Xəbərim var ki, 1929-cu ildə yaradılmış bu rayon ərazi vahidi kimi daha qədim tarixə malikdir. Ən azından İmişlinin İmişli ərazisində daha böyük kəndlər var - Ə.M.) özlərinin böyük tarixiylə, o cümlədən kənd təsərrüfatı heyvandarlıq sahəsiylə məşğul olmaları ilə həmişə diqqəti çəkiblər. Yəni Muğanı dağlarla birləşdirən, yayalaqları İmşli havasıyla qovuşduran bu insanların həyatı və tarixi həmişə maraq doğurubdu. Bunların arasında Qaradonlunun bir yaşayış massivi kimi, bir məntəqə kimi, eləcə də dəmiryolu stansiyası kimi həmişə özəl yeri olubdu. Çox təəssüf ki, sovet dönəmində bir çox bölgələrimizdə olduğu kimi, İmişlidə də dilimizə yad olan adlarla da rastlaşmışıq. Məsələn, Paltavka, Semyonovka, Kutuzovka və digər kəndlər çarizmin Azərbaycandakı real izləri kimi tariximizə düşübdü. Ancaq zaman keçdikcə, xüsusilə müstəqillik əldə etdikdən sonra kəndi, yaşayış məntəqəsi yoxdur ki, orada rabitə, işıq, yol məsələləri bütünlüklə unudulmuş olsun. Yəni həm rayon rəhbərliyi, həm də Azərbaycan prezidenti cənab İlham Əliyev ən ucaq yaşayış məskənlərimizin belə abadlaşması, müasirləşməsi üçün gərəkli olan bütün tədbirlərin görülməsi üçün ciddi addımlar atırlar. Eldə bunun nəticəsidir ki, indi ölkəmizin hər yerində olduğu kimt, İmişlidə də qazlaşdırılan müasir rabitə mçsələri həll olunmaq üzrədir. Deməli, İmişlinin kənd və qəsəbələrində qurulan yeni ATS-lər, onların müasir avadanlıqlarla təminatı, həmçinin qaz və su probleminin çözümü rayon rəhbərliyinin, şəxsən İmişli rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyevin gündəlik diqqət yetirdiyi məsələdi.

Bütün bunlar göstərir ki, bu gün İmişolidə Azərbaycan prezidentinin işgüzar, məsuliyyətli və real vəziyyəti qiymətləndirmyi bacaran nümiayəndələri fəaliyyət göstərir. Onlar da öz növbələrinldə təkcə rayon mərkəzində deyil, eləcə də rayonun digər yaşayış massivlərində həm günün, həm də gələcəyin problemlərinin çözümünə çalışırlar. Ən dəqiq hesablamalarla yanaşsaq, onda görərik ki, bu gün İmişlidə səhiyyə, təhsil, mədəniyyət məsələləri yüksələn xətt üzrə inkişaf etməkdədir. Həm Heydər Əliyev Fondunun maliyyə yardımı və dəstəyi ilə, həm də respublika hökumətinin, həm də yerli imkanların hesabına İmişlidə müasir məktəblərin tikilib istifadə olunması işi ardıcıl həyata keçirilir. Təhsilə göstərilən bu diqqət və qayğının nəticəsidir ki, son illər İmişli məzunlarının ali məktəblərə qəbul məsələlərində müsbət dəyişikliklər baş verir. Bunun da səbəbi məktəblərdə tədris vəsaitləriin yenilənməsi, kompüter siniflərinin artımı, həmçinin pedaqoji kollektivlərin öz bilik səviyyələrini günbəgün yüksəltməsidi. Yeni araşdırmalar göstərir ki, İmişli təhsil şöbəsinin əməkdaşları, ümumiyyətlə, bu rayonda çalışan müəllim kontingenti ölkədə həyata keçirilən təhsil islahatından bacarıqla yararlanır. Ona görə də təhsilə gətirilən yeniliklər İmişlidə uğurlu nəticələr ortaya qoyur.

Bəli, bu gün İmişlidə səhiyyə məslələri də uğurla həll olunur. İstər mərkəzi rayon xəstəxanasının, istər poliklinika və digər xəstəxanaların hər birində bu gün üçün zəruri olan vasitələrin təminatı demək olar ki, birmənalı şəkildə nəzartədə saxlanılır. Məhz bu səbəbdən də indii rayonun digər bölgələri və paytaxta səhhəti ilə bağlı müraciət edənlərin faiz göstəricisi aşağı düşməyə başlayıb. Yəni rayon sakinləri öz həkimlərinə, öz səhiyyə ocaqlarına getdikcə daha çox inanır və güvənirlər. Çünki artıq İmişlidə də müasir avadanlıqlar və ondan peşəkarcasına istifadə edən tibb işçiləri var. Bu da son nəticədə insanların sağlamlığına xidmət edir. Deməli, Azərbaycan səhiyyəsinin bir qanalı olan İmişli səhiyyəsi və bu sahədə çalışanlar öz üzərlərinə düşən işin öhdəsindən gəlməkdədilər.

**İmişli rayonunda tarix-diyarşünaslıq muzeyinin fəaliyyəti və mədəniyyət sahəsinə ayrılan diqqət sevindiricidi. Elə bu diqqətin nəticəsidir ki, İmişlinin mədəniyyət işçiləri rayonun mədəni-ictimai həyatında yaxından iştirak edir, rayon miqyaslı, eləcə də ölkə əhəmiyyətli tədbirlərdə öz fəallıqları ilə hər kəsi sevindirirlər. Deməli, bu gün İmişli rayonu təkcə tikinti, kənd təsərrüfatı və digəp sahələrlə yanaşı, səhiyyə, təhsil, mədəniyyət sahələrində də uğurlu bir yolu davam etdirirlər. Uğur olsun!**

**Əbülfət MƏDƏTOĞLU**